

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 70 (21.731)

14 aprel 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 13-də Ukraynanın Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçkonu qəbul edib.

Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçko ilə bu yaxınlarda Münxendəki görüşünü xatırlayan dövlətimizin başçısı onun Azərbaycana səfərinin maraqlı keçəcəyinə, ölkələrimiz, o cümlədən Bakı ilə Kiyev arasında əlaqələrin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Əməkdaşlıq və qarşılıqlı təcrübə üçün yaxşı perspektivlərin olduğunu vurğulayan dövlətimizin başçısı İlham Əliyev Vitali Kliçkonun bu səfərinin həmkarları ilə görüşmək, paytaxtımızda gedən inkişaf prosesləri və Bakıda inşa olunan idman obyektləri ilə yaxından tanış olmaq üçün imkan yaratdığını deyib.

Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini bildirən Kiyev Şəhər Dövlət Administrasiyasının başçısı Vitali Kliçko Bakıda uzun müddət olmadığını və paytaxtımızın gözəlliyinin onda dərin təəssürat yaratdığını vurğulayıb. O, bu səfəri ilə bağlı ölkələrimiz, eləcə də Bakı ilə Kiyev arasında əməkdaşlığın genişləndirilməsi baxımından böyük hazırlıq işlərinin görüldüyünü deyib.



## Yeni Azərbaycan Partiyası şəhər və rayon təşkilatlarının şura iclaslarında görülmüş işlər müzakirə olunub



Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Elman Cəfərlinin məruzəsi dinlənilib.

Bildirilib ki, bu il mart ayının 16-da keçirilən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbov Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında Yeni Azərbaycan Partiyasının böyük xidmətləri olduğunu diqqətə çatdırıb. Ali Məclisin Sədri deyib: ***"Partiyamızın dünəni quruculuq, bu günü isə yaradıcılıq tarixidir".***

Qeyd olunub ki, 2017-ci il yanvarın 1-nə olan məlumata görə, partiyanın Naxçıvan Şəhər Təşkilatı üzvlərinin sayı 16 min 52 nəfər idisə, ötən müddətdə onların sayı 168 nəfər artıb və hazırda şəhər təşkilatının əhatə etdiyi 150 ilk partiya təşkilatı ətrafında 16 min 220 üzvü birləşdirib. Ötən müddətdə partiyaya 234 yeni üzv qəbul edilib. Partiya üzvlərinin 8 min 469-nu qadınlar, 9 min 193-nü 19-35 yaşlı gənclər təşkil edir. İlin ilk üç ayı ərzində partiya sıralarına qəbul olunanların 130-nu qadınlar, 189-nu 30 yaşadək gənclər təşkil edir. Yeni qəbul olunan partiya üzvlərinin siyasi-ideoloji hazırlığı xüsusi diqqət mərkəzində saxlanılıb, onlarla bir neçə mərhələdə iş aparılıb.

Elman Cəfərli vurğulayıb ki, partiya üzvlüyünə qəbul məsələsində bundan sonra da keyfiyyət amilinin rəhbər tutulması davam etdirilərək gənclər arasında ideya-siyasi işi gücləndirməklə nümunəvi və bacarıqlı gənclərin partiya sıralarına fəal cəlb olunması prioritet istiqamət təşkil edəcək. Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının hər ay keçirilən idarə heyəti və üç ayda bir dəfə keçirilən şura iclaslarında ilk partiya təşkilatlarının hesabatları dinləniləcək və müvafiq qərarlar qəbul ediləcəkdir. Bundan başqa, təşkilatın şura və idarə heyəti üzvlərinin ilk təşkilatların keçirdiyi tədbirlərdə daha fəal iştirakı təmin ediləcək, üzvlərlə bilavasitə görüşlər keçiriləcəkdir. Qadınlar Şurasının və Gənclər Birliyinin fəaliyyətini daha da gücləndirmək və partiya işinə məsuliyyəti artırmaq məqsədilə bundan sonrakı şura iclaslarında hər iki partiya qurumunun gördüyü işlər haqqında məruzələri dinləniləcəkdir.

Məruzəçi qeyd edib ki, partiyanın Naxçıvan Şəhər Təşkilatı bundan sonra da fəaliyyətini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında qarşıya qoyulmuş vəzifələrə uyğun, partiya işinin daha da yaxşılaşdırılması istiqamətində qurmalı, hər bir partiya üzvü şəhərimizin ictimai-siyasi həyatında daha fəal şəkildə iştirak etməlidir.

Müzakirələrdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının və Naxçıvan Şəhər Təşkilatı şurasının üzvləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Hacıfəxrəddin Səfərli, Aidə Allahverdiyeva, şura üzvləri, ilk partiya təşkilatı sədrləri Tural Haqverdiyev və Çapay Quliyev çıxış ediblər.

**Xəbərlər şöbəsi**



Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının növbəti şura iclasında Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qadir İbrahimovun məruzəsi dinlənilib. Təşkilatın sədri bildirib ki, rayon təşkilatı fəaliyyətini 2017-ci ilin əvvəlindən yeni iş metodları ilə qurmağa çalışıb, təbliğat-təşviqat işlərini gücləndirib, yerlərdə partiya işlərini yeniləşdirməyə, inkişaf etdirməyə səy göstərib.

Təşkilatın ötən il oktyabrın 24-də keçirilmiş X konfransı barədə məlumat verən Q.İbrahimov vurğulayıb ki, rayon təşkilatının 11 nəfərdən ibarət Gənclər Birliyi, 11 nəfərdən ibarət Qadınlar Şurası fəaliyyət göstərir. Ərazi ilk təşkilat sədrlərinin 24-ü gənc, 12-si qadın, 46-sı ali təhsilli, 9-u orta ixtisas təhsillidir.

Qeyd olunub ki, hazırda rayon təşkilatında 5462 Yeni Azərbaycan Partiyası üzvü var. Onlardan 2577-si qadın, 1708-i gəncdir. Bələdiyyələrdə 145 YAP üzvü fəaliyyət göstərir. 2017-ci ilin 3 ayında 34 nəfər Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunub. Onlardan 32-si gənc, 22-si qadındır.

Qadir İbrahimov deyib ki, rayon təşkilatı öz işini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub. Partiya üzvlüyünə qəbula xüsusi diqqət yetirilir, üzvlüyə yeni qəbul olunanlarla iş gücləndirilir, üzvlərlə fərdi işə üstünlük verilir. Ərazi ilk təşkilatlarında gənc və yaradıcı qüvvələrin Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilməsinə diqqət yetirilir.

Məruzə ətrafında müzakirələr olub. İclasda Culfa Rayon İcra Hakimiyyətinin başçısı, təşkilatın şura və idarə heyətlərinin üzvü Şükür Babayevin çıxışı dinlənilib.

Şura iclasında çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov qeyd edib ki, 2017-ci il 16 mart tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun sədrliyi ilə təşkilatın Siyasi Şurasının iclasında partiya strukturları qarşısında 2017-ci il üçün müəyyənləşdirilən əsas istiqamətlər və onlarla bağlı fəaliyyətin qurulması, tapşırıqların yerlərdə yerinə yetirilməsi bütün partiya təşkilatları, o cümlədən Culfa Rayon Təşkilatı üçün başlıca məqsəddir. Partiya təşkilatı sədrinin əsas tapşırıqları olan ideoloji və təşkilati iş inkişafın reallığına uyğunlaşdırılmalı, partiya üzvləri, xüsusən də yeni qəbul olunan üzvlərlə fərdi iş aparılmalı, Qadınlar Şurasının fəaliyyəti daha da gücləndirilməli, kənd yaşayış məntəqələrində yaradılan şəraitdən maksimum faydalı istifadə edərək ictimai fəallıq artırılmalı və hər zaman aktual olan partiyanın kadr siyasəti diqqətdə saxlanılmalıdır.

Sonda müzakirə olunan məsələ ilə əlaqədar qərar qəbul edilib.

**Hüseyn ŞƏKƏRƏLİYEV**

## Xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüş keçirilib

***Gömrük xidməti ilə biznes subyektləri arasında əməkdaşlığın genişləndirilməsi məqsədilə Naxçıvan Biznes Mərkəzində xarici iqtisadi fəaliyyət iştirakçıları ilə növbəti görüş olub. Görüşdə gömrük orqanları tərəfindən xarici ticarətin asanlaşdırılması və daxili bazarın qorunması istiqamətində görülən işlər, gömrük ödənişləri zamanı sahibkarlara tətbiq olunan güzəştlər, göstərilən elektron gömrük xidmətləri haqqında məlumat verilib. Əlaqəli dövlət orqanlarının qarşılıqlı fəaliyyətinin də dəyərləndirildiyi tədbirdə iş adamlarının problemləri dinlənilərək həlli yolları müzakirə olunub.***

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov tədbiri giriş sözü ilə açaraq görüşün mahiyyətindən, müzakirə olunacaq məsələlərin ümumi işə verə biləcək səmərəsindən danışıb. Gömrük sistemində qanunvericiliyin təkmilləşdirilməsinin, "bir pəncərə" prinsipinin tətbiqinin, xidmətlərin elektron qaydada həyata keçirilməsinin rəsmiləşdirməni asanlaşdırmaqla yanaşı, həm də sürətləndirdiyini önə çəkən komitə sədri xarici iqtisadi fəaliyyət iştirakçılarına dövlətimizin iqtisadi maraqlarını, muxtar respublikanın coğrafi, iqtisadi xüsusiyyətlərini daha əhatəli təhlil etməyi, qanunvericiliyin tələblərini dərindən öyrənməyi, gömrük əməkdaşları ilə məsləhətləşmələr aparmağı tövsiyə edib.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov çıxış edərək son illər muxtar respublikada sahibkarlıq subyektlərinin fəaliyyətinə hərtərəfli diqqət və qayğının göstərildiyini vurğulayıb. Qeyd olunub ki, yaradılmış şərait hesabına daxili bazarda yerli istehsalın çəkisi ildən-ilə artır, idxal-ixrac əməliyyatlarının tənzimlənməsi mexanizmi muxtar respublika iqtisadiyyatının dinamik inkişafına müsbət təsir göstərir.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Bəxtiyar İsmayılov yerli istehsalın, o cümlədən xarici ölkələrdən idxal olunan ərzaq və qida məhsullarının, mal-material və avadanlıqların keyfiyyət göstəricilərinə ciddi nəzarət olunduğunu vurğulayaraq, muxtar respublikamızda rəqabətədavamlı məhsul istehsalına xüsusi önəm verildiyini qeyd edib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli gömrük orqanları tərəfindən sahibkarlıq sahələrinin inkişafının stimullaşdırılması, daxili bazarın qorunması, süni qiymət dəyişmələrinin qarşısının alınması istiqamətində görülən işlərdən danışıb.

Komitənin Maliyyə-tarif şöbəsinin rəisi, gömrük xidməti mayoru Rafael Əliyev gömrük rüsumlarının hesablanması qaydası və sahibkarlara tətbiq olunan güzəştlər, Statistika və informasiya texnologiyaları şöbəsinin rəisi, gömrük xidməti mayoru Emin Eylazov elektron gömrük xidmətləri barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərinin dəstəklənməsi məqsədilə əlaqəli dövlət qurumları tərəfindən görülən işlərin həcminin daha da artırılması, sahibkarlıq fəaliyyətinin düzgün istiqamətləndirilməsi ilə bağlı təkliflərlə çıxış edib və bu cür görüşlərin əhəmiyyətini qeyd edib.

Sonra xarici iqtisadi fəaliyyətlə məşğul olan sahibkarlıq subyektlərinin iştirakı ilə diskussiya olub.

Xarici iqtisadi fəaliyyət iştirakçıları olan sahibkarlara gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlər və gömrük-biznes əməkdaşlığının artırılması istiqamətində əsas tövsiyələri özündə əks etdirən məlumat vərəqələri paylanılıb.

**Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti**

# Azərbaycanın elm xəzinəsinə dəyərli töhfələr vermiş görkəmli alim – Həsən Əliyev

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2017-ci il 7 fevral tarixdə "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamda deyilir: **"Azərbaycanda coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Alim bütün zəngin fəaliyyəti boyunca ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir".***

*Həmin sərəncamın muxtar respublikamızda icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məslisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə "Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər planına əsasən il ərzində muxtar respublikada müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulub.*



Ekologiya elminə böyük töhfələr verən, onun insan sağlamlığındakı rolu barədə sanballı elmi tədqiqatların müəllifi olan Azərbaycan təbiətinin böyük hamisi akademik Həsən Əliyev XX əsrin 70-ci illərində yazırdı: "Ekologiya yaxın gələcəkdə bütün elmləri bir-biri ilə əlaqələndirən nəhəng və möhtəşəm bir çinar ağacını xatırladan fundamental, planetar əhəmiyyətli və çox perspektivli elmə çevriləcəkdir. Ekologiyasız başqa elmlərin inkişafı qeyri-mümkündür". Zaman keçdikdən sonra bu fikir onun çox uzaqgörən bir alim olduğunu bir daha sübut etdi. O, ekologiyada necə illər sonra baş verəcək prosesləri əvvəlcədən görə bilirdi. Bu yerdə Məhəmməd Peyğəmbərin bir kəlamı yada düşür: "Alimlər dünyanın çırağı, axirətin nurudurlar". Akademik Həsən Əliyev məhz belə alimlərdən biri idi.

Azərbaycan elmi ictimaiyyətinin böyük fəxrlə "Azərbaycan təbiətinin patriarxı" adlandırdığı akademik Həsən Əliyevin, sözün həqiqi mənasında, həyəcansız oxunması mümkün olmayan "Həyəcan təbili" kitabında gəldiyi qənaət çox düşündürücüdür: "İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. 600 min ildən artıqdır ki, müasir insanla təbiət arasında münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. İnsanın sayı artdıqca və texniki vasitələrə daha mükəmməl yiyələndikcə təbiətə daha çox təsir edir, onu dəyişdirir, qırır, öz məqsədləri üçün daha geniş istifadə edir, əvəzində isə ona heç nə qaytarmır. Deməli, insan təbiətə çox ciddi zərər vurur".

Təbiətimizin böyük hamisinin yaşadığı dövrdə bütün bunlar reallıq idi. Çünki cəmiyyətin sürətlə inkişaf etdiyi bir zamanda təbiətlə insan arasındakı münasibətlərin pozulması və təhlükəli şəkil alması barədə teztez söhbətlər gedir, mötəbər tribunalarda ekoloji tarazlığın qorunmasının vacibliyi vurğulanırdı. Alim təbii sərvətlərin mühafizəsini, onlardan səmərəli istifadə edilməsini, xüsusən canlı sərvətlərin qorunmasını ümummilli və beynəlxalq məsələ hesab edirdi.

Böyük alim haqqında çoxlu kitablar, məqalələr yazılıb və filmlər çəkilib. Onun 60 illik elmi fəaliyyəti haqqında saatlarla danışmaq olar. Çünki Azərbaycan təbiətinin gözəl mütəxəssisi olan akademik Həsən Əliyev ölkəmizdə təbiəti qorumağın elmi əsaslarını işləyib hazırlamış ilk alimdir.

Ömrünün sonuna kimi çox gərgin və məhsuldar işləyən, Azərbaycan təbiətinin qorunmasından və təbiət elminin inkişafından söz düşəndə adı həmişə birincilər sırasında çəkilən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor, Əməkdar elm xadimi, ABŞ-ın Ümumdünya Universitetinin fəxri elmlər doktoru olmuş Həsən Əliyev bu gün də ən xoş və səmimi hisslərlə xatırlanır.

Akademik Həsən Əliyev 1907-ci il dekabr ayının 15-də Zəngəzur qəzasının Comərdli kəndində dünyaya göz açmışdı. 1924-1930-cu illərdə Naxçıvan şəhərində axşam məktəbini və kənd təsərrüfatı texnikumunu bitirdikdən sonra Gəncədə Kənd Təsərrüfatı İnstitutunun tələbəsi, 1932-1934-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun aspirantı olub. 1934-1935-ci illərdə həmin institutun Şirvan zonasında təcrübə stansiyasının direktoru vəzifəsində çalışıb. Bu dövrdə apardığı elmi tədqiqatlar onun torpaqşünas, aqrobotanik və ekoloq alim kimi gələcək elmi fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirib. Həsən Əliyev 1941-1943-cü illərdə müharibənin odu-alovu içərisindən keçib, döyüşlərin birində ağır yaralandıqdan sonra cəbhədən tərxis edilib və yenidən elmə qayıdıb. 1943-1944-cü illərdə Azərbaycan Elmlər Akademiyasının coğrafiya bölməsinin rəhbəri işlədiyi bir vaxtda müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib.

1945-1949-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim işləyən Həsən Əliyev respublikamızda torpaqşünaslıq, kənd təsərrüfatı, aqrobiologiya, ekologiya və coğrafiya kimi elm sahələrinin tədqiqatına geniş yer ayırıb.

1944-1949-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini işləyən alim 1946-1962-ci illərdə Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Azərbaycan filialının sədri kimi də fəaliyyət göstərib. Bu dövr Azərbaycanda torpaqşünaslıq və aqrokimya elminin hərtərəfli inkişaf mərhələsi kimi qiymətləndirilir. Elə həmin dövrdə – 1949-1952-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutuna rəhbərlik edən Həsən Əliyev qısa müddətdə səkkizcildlik "Azərbaycan florası" kitabının hazırlanmasına və çapına qayğı göstərməklə bu işin uğurla başa çatmasına böyük əmək sərf edib. Onun təşəbbüsü ilə həmin institutun əməkdaşları tərəfindən axtarış-tədqiqat işləri aparılaraq respublikamızın 52 rayonunun 318 obyekt sahəsində 2469 nadir abidə ağacların, unikal meşəliklərin olması müəyyən edilib.

1952-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilən və 1957-ci ilə kimi akademiyanın akademik-katibi vəzifəsində işləyən Həsən Əliyev bu vəzifə ilə yanaşı, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun şöbə müdiri kimi də fəaliyyət göstərib.

1968-ci ildə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutuna direktor təyin edilən görkəmli alimin sağlığında bir sıra kitabları xarici dillərə də tərcümə olunub. Təbiətin mühafizəsinin müxtəlif problemlərinə həsr etdiyi çoxsaylı əsərləri ABŞ, Fransa, Yaponiya, Belçika, Almaniya, Vyetnam və əksər Şərqi Avropa ölkələrində nəşr edilib. Məşhur "Həyəcan təbili" kitabı 1969-cu ildə Yerusəlim Universiteti tərəfindən ingilis dilində çapdan çıxıb. Brüsseldə çap olunan "Azərbaycan SSR-in dağlıq rayonlarında torpaq eroziyasının inkişafı və bu prosesin qarşısının alınması cəhdi" adlı monoqrafiyası da alimə böyük şöhrət qazandırıb.

Təbiətin mühafizəsinə xüsusi diqqət ayıran akademik ilk dəfə respublikamızda həmin problemin həllinin vacibliyi ilə bağlı həyəcan təbilini çalan alimdir. Belə ki, 1957-ci ildə Həsən Əliyevin təşəbbüsü ilə Bakıda Zaqafqaziyada təbiətin mühafizəsinə həsr olunmuş müşavirə keçirilib. Bu müşavirədə ilk dəfə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilati formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti təhlil edilib və əməli təkliflər irəli sürülüb. Bir vaxtlar respublikada fəaliyyət göstərmiş Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi, Təbiəti Mühafizə Cəmiyyəti bilavasitə böyük alimin şəxsi təşəbbüsü ilə yaradılıb.

Həsən Əliyevin redaktorluğu ilə çap edilən "Azərbaycan təbiəti" adlı elmi-kütləvi jurnal təbiətimizin mühafizəsinin təbliğində mühüm rol oynayıb. Bu jurnalda təbiət humanizm, mənəvi paklıq, vətənpərvərlik hisslərinin daşıyıcısı kimi öz qiymətini tapıb. Uzun müddət akademiklə birgə "Azərbaycan təbiəti" jurnalının nəşr olunmasında fəaliyyət göstərən Xalq şairi Məmməd Araz yazırdı: "Azərbaycan torpaqşünaslıq elmi öz yaranışı, inkişafı, tədqiqat yolu üçün həmişə Həsən Əliyevin ruhuna baş əyməlidir".

Akademikin təşəbbüsü ilə Kürboyu "Qarayazı", "Bəsitçay", "Türyançay", "İsmayıllı", "Pirqulu", Kiçik Qafqazda "Göygöl", Qarabağ vulkanik yaylasının cənub hissəsində "Qaragöl" və nəsli kəsilmək təhlükəsi olan ceyranların mühafizəsi, artırılması üçün "Şirvan" Dövlət qoruqları yaradılıb.

Həsən Əliyev respublikanı qarışqarış gəzir, onun gözəlliklərini lentə köçürür və bu lentləri Bakıdan başlayaraq dünyanın əksər ölkələrində keçirilən elmi məclislərdə söylədiyi məruzələrində nümayiş etdirirdi. O, bununla insanlarda təbiətə məhəbbət hissini aşılayırdı. Xüsusilə bu işdə alimin elmi-kütləvi səpkidə yazdığı və 1982-ci ildə çap etdirdiyi "Həyəcan təbili" kitabının ötən əsrin 50-ci illərindən sonra respublikanın təbiətində baş verən ekoloji problemlərin ölkə ictimaiyyətinin diqqətinə çatdırılması baxımından əhəmiyyəti misilsizdir.

Qeyd etmək lazımdır ki, yüksəkixtisaslı elmi kadrların yetişməsinə də xüsusi qayğı və diqqət göstərən Həsən Əliyevin rəhbərliyi ilə alimlik dərəcəsi almış neçə-neçə fəlsəfə və elmlər doktorları var və onlar təbiətin müxtəlif sahələrinin aktual elmi problemlərinin araşdırılması ilə bu gün də məşğuldurlar. Yüksək insani keyfiyyətlərə malik olan alimin şəxsi məziyyətlərindən biri də öz dövrünün görkəmli rus alimləri S.B.Zonn, R.V.Kovalyov, V.A.Kovda, İ.P.Gerasimov, İ.A.Krupenikov, Q.B.Dobrovolski və başqaları ilə sıx elmi və dostluq əlaqələri yarada bilməsi idi.

Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasının üzvü olmuş akademik Azərbaycan SSR Ali Sovetinin deputatı kimi də fəaliyyət göstərib. Görkəmli alimin xidmətləri həmişə yüksək qiymətləndirilib. O, "Lenin", "Oktyabr inqilabı", "Qırmızı əmək bayrağı", "Qırmızı ulduz", "Birinci dərəcəli Vətən müharibəsi", "Şöhrət" ordenləri və bir çox medallarla təltif edilib. Görkəmli alim Azərbaycanın Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı idi, Vavilov adına medala layiq görülmüşdü.

Həsən Əliyev uzun müddət Azərbaycan SSR Təbiəti Mühafizə Cəmiyyətinin sədri və Azərbaycan SSR Coğrafiya Cəmiyyətinin prezidenti işlədiyi dövrdə Yunanıstan, Polşa, ABŞ, Rumıniya, İsveçrə və sair ölkələrdə, eləcə də Moskva, Sankt-Peterburq, Vladivostok və digər şəhərlərdə keçirilən torpaqşünasların beynəlxalq konqres, qurultay və konfranslarında məruzələrlə çıxış edib.

Akademik Həsən Əliyev muxtar respublikamızın da ekologiyası ilə dərindən maraqlanır, bu qədim diyarın zəngin təbiətini tədqiq edir, öz dəyərli məsləhətlərini verir, rastlaşdığı neqativ hallara qarşı öz kəskin münasibətini bildirirdi.

Bu gün qürur hissi keçiririk ki, görkəmli təbiətşünas alimin Naxçıvanın ekoloji mühiti, zəngin təbiətinin qorunması haqqındakı arzuları reallığa çevrilib. Bu sahəyə göstərilən qayğının ifadəsidir ki, bir vaxtlar yaşıl örtük sahəsi ümumi ərazisinin bir faizini belə təşkil etməyən muxtar respublikada bu gün 12 faizdən çox ərazi yaşıllıqlara bürünüb. Qədim diyarda hər ilin yaz və payız iməciliklərində yeni yaşıllıq zolaqları, meyvə bağları salınır, qədim meyvə sortlarının, uzunömürlü ağacların bərpası diqqətdə saxlanılır.

Azərbaycan Prezidentinin 2003-cü il 16 iyun tarixli sərəncamı ilə muxtar respublikanın Ordubad rayonunda yaradılmış milli parka akademik Həsən Əliyevin adının verilməsi görkəmli təbiətşünas alimə böyük ehtiramın ifadəsidir. Qeyd edək ki, 2009-cu il noyabrın 25-də Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42797,4 hektara çatdırılıb. Həmin sərəncamla milli parkın adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb.

Çox mənalı və şərəfli ömür yaşamış görkəmli alim özündən sonra gələn nəsillərə zəngin elmi irs qoyub gedib. 60 ildən çox davam edən elmi yaradıcılıq fəaliyyətində 800-ə qədər elmi məqalənin, monoqrafiyanın, 140-a qədər müxtəlif təyinatlı xəritələrin, xeyli sayda elmi-kütləvi əsərlərin müəllifi olan akademik dünyanın bir çox ölkəsində, o cümlədən 5 qitənin hamısında olub. O, yazır ki, "Öz ölkəmiz qədər mənə xoş təsir bağışlayan ikinci bir ölkə tanımıram. Buranın insanları da, iqlimi də, torpağı, suyu, meşəsi, havası da əvəzolunmazdır. Burada yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir. Qaş kirpiyi, kirpik isə gözü qoruduğu kimi, bizim hər birimiz Allahın bizə bəxş etdiyi bu nemətı göz bəbəyimiz təki qorumalıyıq, onun keşiyində durmalıyıq, qayğısını çəkməliyik... Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim "çörək ağacımız" olmaqla yanaşı, həm də yaşayışımızın ibtidasını təşkil edir. Torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir".

**Muxtar MƏMMƏDOV**

# Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi Şahbuz rayonunda qeyd olunub

*Tədbirdə Şahbuz rayon ağsaqqalları və ziyalıları, rayon Təhsil Şöbəsinin nümayəndələri, müəllim və şagirdlər, universitet əməkdaşları iştirak ediblər. Şahbuz Rayon Təhsil Şöbəsinin müdiri Araz Məmmədov tədbirdə çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında 14 yanvar 2017-ci il tarixdə imzaladığı Sərəncamın əhəmiyyətindən danışıb, universitetin 50 illik yubileyinin qeyd olunmasının muxtar respublikada elmə və təhsilə göstərilən yüksək diqqətin bariz nümunəsi olduğunu vurğulayıb.*

Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, dosent Şamxal Məmmədov universitetin keçdiyi inkişaf yoluna nəzər salaraq bildirib ki, 1967-1968-ci tədris ilində cəmi 3 ixtisas üzrə kadr hazırlığına başlanan bu ali təhsil ocağında hazırda 57 ixtisas üzrə bakalavr, 46 ixtisas üzrə magistr, 31 ixtisas üzrə doktorant hazırlığı aparılır. Prorektor universitetin maddi-texniki və tədris bazası, 108 hektar sahədə yerləşən 16 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya-İdman Mərkəzi, Baytarlıq Təbabəti Klinikası və Tələbə evi, Media mərkəzi və digər struktur qurumları, beynəlxalq əlaqələri, elektron universitet quruculuğu istiqamətində qazandığı uğurlar haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Naxçıvan Dövlət Universiteti 2009-cu ildə Avropa Rektorlar Klubu tərəfindən "Minilliyin universiteti" adına layiq görülüb, 2015-ci ildə Azərbaycan Respublikasının 30 ali məktəbinin çoxkriteriyalı, beynəlxalq standartlara uyğun reytinq cədvəlində birinci yeri tutub.



Universitetin Botanika kafedrasının müdiri, dosent Musa Piriyev, dosent Xanəli Kərimli ali təhsil ocağının dünyaya inteqrasiyası istiqamətində əldə etdiyi nailiyyətlərdən, Şahbuz rayon ziyalı mühitinin formalaşmasındakı rolundan danışıblar.

Pedaqoji fakültənin tədris işləri üzrə dekan müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent İbrahim Rüstəmov universitetin ilk məzunlarından biri və burada 45 illik elmi-pedaqoji fəaliyyət göstərən alim, ziyalı kimi universitetin müqayisəolunmaz inkişaf yolu keçməsindən iftixarla danışıb.

Ali təhsil ocağının Ümumi təbabət kafedrasının dosenti, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Cəbi İsmayılov, Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Nadir Hüseynbəyli, Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov universitetin milli təhsil tarixindəki özünəməxsus yerindən, burada humanitar və tibb elmləri istiqamətində kadr hazırlığının səviyyəsindən danışıblar.

**Mehriban SULTAN**

***Bu gün ölkəmizdə uşaqlar dünyanın ən şirin varlıqları kimi xüsusi qayğı görür, nağıllardakı saraylara bənzəyən bağçalara, məktəblərə gedir, hər cür şəraitlə təmin olunmuş yaradıcılıq mərkəzlərində vaxtlarını şən və qayğısız keçirir, incəsənətin və idmanın müxtəlif növləri ilə məşğul olur, ən müasir səhiyyə ocaqlarında müayinə olunur, müalicə alır, cəmiyyətə faydalı, vətənpərvər bir şəxsiyyət kimi formalaşırlar. Uşaqların dünyaya pəncərəsi sayılan bağçalarda bu gün onların hərtərəfli böyüməsi, təlim-tərbiyəsinin günün tələbləri səviyyəsində qurulması və sağlamlıqlarının qorunması məqsədilə lazımi şərait yaradılıb.***







# Ölkəmizin sabahı gələcəyimiz olan uşaqların necə tərbiyə edilməsindən asılıdır

### *Əvvəllər necə idi?*

Təbii ki, bunu sovet dövründə, eləcə də ötən əsrin 90-cı illərinin əvvəllərində belə müəssisələrdə çalışmış insanlar və uşaqlarını bu məkanlara etibar etmiş valideynlər daha yaxşı bilər.

O dövrdə uşaq bağçasına iki övladını əmanət etmiş valideynlərdən Naxçıvan şəhər sakini, təqaüdçü müəllim Solmaz Rzayevanın yaddaşında qalanlardan: "Övladlarımın hər ikisini səhər bağçaya aparanda çox zaman müşküllə üzləşmişəm. Demək olar ki, hər gün uşaqların əlindən tutub zorla yayda isti, qışda soyuq bağçaya aparmaq məcburiyyətində qaldığımdan, çox zaman orada səsimi də çıxara bilmirdim ki, birdən uşaqları incidərlər. Ancaq mənə uşaqları bağçadan uzaqlaşdıran səbəblər çoxdan məlum idi; bağçalardakı şəraitsizlik, qeyri-peşəkar tərbiyəçilər, diqqətsizlik, etinasızlıq. İşə gedən valideyn kimi uşaqlarımın etibarlı bir yerdə olmasını istəyirdim. Ancaq köhnə, uçuq-sökük binası olan bağçada bu zəmanəti kim verə bilərdi ki? Uşaqlarımın yaxşı qidalanmasını, təmiz, isti otaqlarda yatızdırılmasını tələb etməyin heç yeri də yox idi. Bəzən uşaqlar bağçadan qayıdanda elə ac olurdular ki, bu vəziyyəti görəndə onları bağçaya göndərdiyim üçün özümü qınayırdım. Təbii ki, bunlar mənim kimi bütün valideynləri narahat edirdi. Ancaq indi hər şey yaxşıya doğru tam dəyişilib. Nəvəm Əlini Naxçıvan şəhərindəki 7 nömrəli bağçaya aparıram. Hər tərəfi gül kimi təmiz, kollektivi gülərüz bağçalarda uşaqları rəngbərəng oyuncaqlarla oynayan görəndə ürəyim dağa dönür. Ancaq istər-istəməz o günlər də yada düşür, öz-özümə, – kaş ki mən də o vaxtlar övladlarımı belə şəraiti olan məkanlara əmanət edə biləydim, deyirəm".

O illərdə uşaq bağçalarındakı yarıtmaz şəraitin daha bir şahidi olan şəhər sakinlərindən İradə Əliyeva isə deyir ki, uzun müddət memar kimi fəaliyyət göstərib. Uşağının bağçada cəmiyyətə hazırlanması, məktəbəqədər hazırlıq kursu keçməsi, digər uşaqlardan fərqli xüsusiyyətinin nə olduğunun, istedadının ortaya çıxarılması ən böyük arzusu olub. Ancaq o illərdə uşaqların istedadının üzə çıxarılması üçün heç bir səy göstərilmədiyindən bu arzusu, necə deyərlər, elə arzu olaraq da qalıb, reallaşmasına nə imkan olub, nə də məktəbəqədər müəssisələrdə çalışanların həvəsi və bacarığı: "Övladımın 3 yaşı olanda düşündüm ki, artıq onun min bir nazını çəkən nənə-babasından ayırıb bağçaya qoymaq vaxtıdır. Təbii ki, onun gələcəyi ilə bağlı min bir xəyal quraraq, öz aləmimdə xeyli araşdırmadan sonra bir bağça düşünmüşdüm. Ancaq oğlumun qismətinə bütün həmyaşıdları kimi bərbad və tozlu-torpaqlı həyəti, kirli döşəməsi, neft qoxusu verən otaqları olan bir bağça düşdü. Bu bağçada tibbi xidmətdən söhbət belə, gedə bilməzdi. Yaxşı yadımdadır, hansısa bir xəstəxanadan gəlib uşaqları peyvənd etmişdilər, bir iynədən bütün uşaqların peyvəndlənməsində istifadə olunmuşdu. Həmin vaxt oğlum uzun müddət xəstəlikdən əziyyət çəkdi".

Bəli, o dövrdə uşaqlarını bağçalara əmanət edən valideynlərin əksəriyyəti ilə söhbət zamanı, dünənki şəraitlə bugünkü mövcud vəziyyəti müqayisə edəndə maraqlı mənzərə ortaya çıxır. Bu baxımdan daha bir həmsöhbətim, hazırda təqaüddə olan Aytən Rüstəmovanın xatirələri çox maraqlıdır: "Övladımı yüz xahiş-minnətlə uşaq bağçasına yazdırıb, ertəsi gün oraya aparanda 4 yaşı olmasına baxmayaraq, onu 5 yaşlılar, yəni məktəbəhazırlıq qrupuna apardılar. Fikirləşdim ki, uşaq özündən böyüklərlə bacarmayacaq. Az sonra məlum oldu ki, həmin qrupda 2, hətta 1 yaşlarında uşaqlar da var. Sən demə, müəllimin və ya texniki işçinin tanışı olan valideynlər uşaqları hansı qrupa istəsələr, yazdıra bilirlərmiş. Bağçada musiqi dərsləri verilsə də, bu dərslərdə iştirak edə bilməyən, ancaq bunu çox istəyən uşaqların narahatlığı musiqi müəllimini qətiyyən narahat etmir, onların bu dərslərə cəlb edilməsi üçün hər hansı bir səy göstərmirdi. Hərdənbir evə bir bənd şeir verib, səhəri gün onu əzbər söyləməyi tələb edirdilər, bunu elə oradaca öyrətmək üçün isə hər hansı bir iş görülmürdü. Belə olan halda uşağın həyata hazırlığı, psixoloji inkişafı məsələsindən heç danışmağa dəyməzdi. Bu cəhətdən vəziyyət olduqca pis idi. Övladımın getdiyi bağçanın binası rütubətli idi, hətta yağış yağanda damırdı. Bütün bunlardan bezib, uşağı bağçaya aparmadım. Ancaq indi bütün bu cür hallar aradan qaldırılıb. Nəvələrim evimiz qədər etibar etdiyimiz müasir bağçalara gedir. Hər bir uşağa valideyn qədər qayğı göstərilir, düzgün tərbiyə edilir. Bu da müstəqil dövlətimizin bu sahəyə diqqət və qayğısının nəticəsidir".

Həmsöhbətlərimin xatirələri o qədər də ürəkaçan olmasa da, o dövrün uşaq bağçalarının mənzərəsini gözlərimin önünə gətirir, uşaqlıq çağları o dövrə təsadüf edənlərin hansı şəraitə malik olan bağçalarda tərbiyə edildiklərini təsəvvürümdə canlandırıram.

### *Və bu gün...*

Bu gün vəziyyət tamamilə başqadır. Naxçıvan Muxtar Respublikası ərazisində hər cür şəraitə malik məktəbəqədər tərbiyə müəssisələrinin – uşaq bağçalarının sayı ilbəil artır. Bu bağçalarda körpə balalarımızın əvvəlcə həyata, yəni ətraf mühitə uyğunlaşmasına, potensiallarının tam üzə çıxarılmasına kömək edilir. Uşaqların orta məktəbə hazırlanmasına isə xüsusi diqqət yetirilir. Bu səbəbdəndir ki, son illərdə uşaq bağçalarına valideynləri tərəfindən əmanət edilən uşaqların sayı qat-qat artıb. Əsas səbəblərdən biri də budur ki, bu gün bağçalarda resurslar, kadrların səviyyəsi müasir dövrün tələblərinə cavab verir, bu müəssisələrin sosial funksiyaları əhatəli, maddi-texniki bazası güclü, proqramlar tamamilə müasirdir. Tərbiyə prosesində ən müasir metodlardan və vəsaitlərdən istifadə edilir. Bu gün uşaqlar bağçada şəxsiyyət kimi formalaşır, hər bir uşağa fərdi psixologiyasına görə münasibət göstərilir. Məktəbəqədər müəssisələrdə çalışanların hazırlıq səviyyəsi müasir tələblərə cavab verir, bu sahədə yeni texnologiyalar tətbiq olunur, müəllim və tərbiyəçilər kurslara cəlb edilir, müasir metodikanı mənimsəmiş kadrlar uşaqlarla məşğul olur. Uşaqların tərbiyəsinə, sağlamlığına və qidalanmasına ciddi diqqət yetirilir. Müxtəlif yaş qruplarından olan uşaqlarla metodik işin aparılmasına, pedaqoji sahədə olan nailiyyətlərdən, yeniliklərdən və qabaqcıl iş təcrübələrindən istifadə edilməsinə xüsusi önəm verilir. Bununla yanaşı, tərbiyəçilərin pedaqoji iş qabiliyyətinin yüksəldilməsi, əyani vasitələrdən və yeni interaktiv təlim metodlarından istifadə, eləcə də uşaqların sağlamlığı və qidalanması da daim nəzarətdə saxlanılır.







Ən sərfəli sərmayə uşaqların təhsilinə, gələcəyinə qoyulan sərmayə hesab edilir. Bu baxımdan muxtar respublikada uşaqlara göstərilən qayğı özünəməxsus çalarları ilə seçilir, onların layiqli vətəndaş kimi formalaşdırılması, hər cür qayğı ilə əhatə olunması dövlətin başlıca sosial vəzifəsi kimi qiymətləndirilir. Uşaqların sosial ehtiyaclarının hərtərəfli təmini, onların yüksək mənəvi mühitdə, milli dəyərlər əsasında tərbiyəsi, təhsil alaraq layiqli şəxsiyyət kimi yetişməsi diqqət mərkəzində saxlanılır. Məktəbəqədəryaşlı uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşmasının və məktəbə hazırlanmasının təmin edilməsi, uşaqların yaradıcılıq mühitində böyüməsi üçün zəruri şəraitin yaradılması prioritet istiqamətlər sırasındadır. Son illər muxtar respublikada tikilən, yaxud yenidən qurulan məktəbəqədər təhsil müəssisələrində müasir şərait yaradılıb, bağçalarda qrup, yataq və soyunub-geyinmə otaqları, yemək və oyun zalları, valideynlər üçün gözləmə otağı, tədbirlər zalı, metodist və tibb otaqları, dərzi və camaşırxana otaqları, idman və əyləncə qurğuları istifadəyə verilib.

Həyata keçirilən tədbirlər sırasında uşaqların qidalanması sahəsində görülən işlər xüsusi yer tutur. Bu gün valideynlərin əsas razılıq etdikləri məsələlərdən biri də uşaq bağçalarında düzgün qidalanmaya üstünlük verilməsidir. Günün rejim qaydalarına uyğun olaraq uşaqların sağlam böyüməsinə kömək edən qidaların menyuya əlavə edilməsi, xüsusilə Naxçıvanda istehsal olunan ekoloji təmiz ərzaq məhsullarından istifadə valideynlərin uzun illər bu sahədə üzləşdikləri çətinliklərə son qoyub.






Bu gün uşaq bağçalarında cəmiyyət və ölkə üçün yararlı vətəndaş kimi yetişdirilən uşaqlar gələcəkdə orta təhsillərini də müvəffəqiyyətlə başa vuraraq dövlətimizin gələcək inkişafında yaxından iştirak edəcəklər. Çünki onlara təkcə təhsil və tərbiyə verilmir, həm də uşaqlar milli dəyərlərimizə, adət-ənənələrimizə sədaqət ruhunda tərbiyə olunur, vətənpərvər böyüdülür.

Uşaqların effektiv məktəbəqədər təhsil alması istiqamətində həyata keçirilən tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Uzun illər məktəbəqədər müəssisədə müəllim işləmiş Adilə Əlimərdanovanın dediklərindən: "Valideynlər çətinlik çəkmədən müxtəlif fəaliyyət sahələrində çalışırlar. Xüsusən də məktəbəqədər təhsil qadınların məşğulluq göstəricilərinə müsbət təsir edir. Bu da gənc ailələrin sosial rifahının yüksəlməsinə şərait yaradır. Tikilən uşaq bağçaları, açığını deyim ki, öz müasir görünüşü və təminatı ilə əvvəllər bizim oxuduğumuz ali məktəblərdən də öndədir. Bilirsiniz, bütün bunların bir səbəbi var. O da ulu öndərimizin yolunun uğurla davam etdirilməsidir. Dahi rəhbərimiz gələcəyimiz olan uşaqlara daim qayğı göstərirdi. Bu gün də o siyasət davam etdirilir. Valideyn olaraq sevinirik ki, gələcəyimiz olan uşaqlar dövlətimizin himayəsi altındadır".

Naxçıvan şəhərindəki 3 nömrəli uşaq bağçasına övladını əmanət edən şəhər sakini Sona Əliyevanın dediklərindən: "Ötən il həyat yoldaşım ilə qızım İlkanəni bağçaya aparmaq qərarına gəldik və mən həmin günün sabahı bağçanın müdiriyyətinə müraciət etdim. Elə o gün mən müsbət cavab aldım və müvafiq sənədləri hazırlayaraq təqdim etdim. Bir gün sonra isə qızımı bağçaya apardım, oradakı şəraitlə də tanış oldum. Hər bir otağın incə bir zövqlə işlənməsi məni valeh etdi. Sözün düzü, bir-iki gün müddətində qızım bağçaya getməyə çətinlik çəksə də, sonradan oradakı şərait, müəllimlərin gülər üzü onu bu məkana alışdırdı. Artıq bir ildir ki, övladımı bu bağçaya əmanət etmişəm və bu, mənim və həyat yoldaşımın işini xeyli asanlaşdırıb. Həm rahat işimizə gedirik, həm də övladımın düzgün qidalanması, istirahət rejimi baxımından tam arxayın oluruq. Onu da deyim ki, bu bağçada əsl ev şəraiti yaradılıb, bir-birindən dadlı yeməklərlə uşaqlar qidalanır, qışda isti otaqlarda, tərtəmiz yataqda yatırlar. Övladımın sağlamlığından da tam əminəm. Çünki bağçada mütəmadi olaraq uşaqlar tibbi müayinədən keçirilir. Buna görə dövlətimizə, biz valideynlər üçün bu şəraiti yaradanlara minnətdaram".

Bu gün muxtar respublikada valideynləri işləyən, xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən və sağlamlıq imkanları məhdud uşaqların bağçalara üz tutması xüsusilə qeyd olunmalıdır. Bu, xüsusilə sağlamlıq imkanları məhdud uşaqların erkən yaşlarında cəmiyyətə inteqrasiyasını təmin edir, onların ailələrinə mənəvi dayaq olur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Uşaq bağçalarının yaradılması, onların fəaliyyətinin təmin olunması məktəbəqədər təhsilin düzgün təşkili ilə yanaşı, həm də ailələrə dəstəkdir. Valideynləri işləyən uşaqlar, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən uşaqlar bağçada təlim-tərbiyə alır, onların məktəbəqədər tərbiyəsi düzgün təşkil olunur. Bu mənada bağçaların yaradılması və fəaliyyətinin təmin edilməsi həm də işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı kimi mühüm əhəmiyyət daşıyır".***

*Ölkəmizin inkişafında özünəməxsus yeri olan qədim diyarımızda görülən işlər öz müasirliyi, mədəni irsə bağlılığı, adət-ənənələrin qorunub saxlanılması baxımından həmişə fərqlənib. Bu tendensiya uşaqlara olan münasibətdə də özünü göstərir.*

**Səbuhi HÜSEYNOV**

# Yerli və əcnəbi turizm şirkətlərinin təmsilçiləri: Naxçıvanla turizm əlaqələrinin inkişafında maraqlıyıq

*Xəbər verdiyimiz kimi, “Nəqşicahan Holdinq” tərəfindən muxtar respublikamızın turizm potensialını tanıtmaq məqsədilə aprelin 11-dən 14-dək qədim diyara info-tur təşkil edilib. İnfo-tur çərçivəsində Türkiyə, İran, Şimali Kipr, Küveyt və Azərbaycanın müxtəlif turizm şirkətlərindən, ümumilikdə, 220 nəfər sahibkar və turizmçi Naxçıvana gəlib. Qonaqlar səfər müddətində muxtar respublikanın tarixi və mədəniyyət abidələri ilə tanış olub, turizm müəssisələrini gəzib, milli mətbəximizin nümunələrindən dadıblar.*





Aprelin 13-də turizm şirkətinin nümayəndələri Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini, Culfa rayonu ərazisindəki “Əlincəqala” tarixi abidəsi və muzeyini ziyarət edib, Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, “Cahan” Ticarət Mərkəzi, “Buxxana” tarix-memarlıq abidəsi ilə tanış olublar. Səfər çərçivəsində Naxçıvan haqqında zəngin məlumatlar toplayan qonaqlar “Şərq qapısı” qəzetinə müsahibələrində muxtar respublika ilə turizm əlaqələrinin inkişafında maraqlı olduqlarını, mövcud potensialdan lazımınca istifadə olunması üçün qarşılıqlı əməkdaşlıqların davam etdirilməsinin əhəmiyyətini vurğulayıblar.

***Elham Rəsulirad – İran İslam Respublikasının “Radseir” turizm şirkətinin təmsilçisi:***



“Naxçıvana ilk dəfədir ki, səfər edirəm. Doğrusunu desəm, bura haqqında o qədər də ətraflı məlumatım yox idi, sadəcə, gedib-gələnlərdən eşitmişdim. Bu info-turu təşkil edənlərə minnətdarlığımı bildirirəm ki, Naxçıvana gəldim və buradakı mövcud turizm potensialı ilə tanış oldum. Ümumi təəssüratlarım bundan ibarətdir ki, Naxçıvan çox təmiz havasına, gözəl iqliminə, xoş mənzərəsinə və qonaqpərvərliyinə görə turistlərin sevdiyi məkandır. Biz Naxçıvanın dağlıq ərazilərində yerləşən turizm obyektlərində olduq, ətrafı seyr etdik. Bir sözlə, deyə bilərəm ki, hər bir iş böyük zövqlə və mükəmməl görülüb. Eyni zamanda naxçıvanlıların istiqanlılığı, qonaqpərvərliyi bura olan marağı daha da artırır. Buna görə də gələcəkdə Naxçıvana səyahət turlarının təşkil olunması istiqamətində əməkdaşlığımızı davam etdirmək niyyətindəyik”.

***Mircavid Həsənov – “Ekoturizm Travel” şirkətinin sahibi:***



“Bu, mənim Naxçıvana ilk səfərimdir. Etiraf edim ki, Naxçıvanın bu dərəcə gözəl, inkişaf etmiş bir region olduğunu bilmirdim. Doğrudur, muxtar respublikanın gözəl təbiət mənzərələri ilə zəngin olduğu, tarixi mədəniyyət abidələrinin çoxluğu haqqında məlumatım var idi. Ancaq çox səthi. Əgər bir neçə gün bundan əvvəl Naxçıvanda maraqlı nə olduğunu soruşsaydılar, deyə bilməyəcəkdim. Burada olduğum müddətdə təəssüfləndiyim yalnız bir şey oldu: niyə əvvəllər Naxçıvana gəlməmişəm? Şirkətimizin fəaliyyət istiqaməti, əsasən, təbiətlə bağlı olduğundan, Naxçıvanda gördüklərim məni çox sevindirdi. Deyə bilərəm ki, Naxçıvanda dağ və piyada turizminin inkişafı üçün çox gözəl və cəlbedici imkanlar var. Hesab edirəm ki, bunu dəyərləndirməliyik. Rusiyanın turizm şirkətləri ilə yaxşı əlaqələrimiz var, hər il minlərlə turist Azərbaycana gəlir. Onların böyük əksəriyyəti üçün ölkəmizin təbiəti çox cəlbedicidir. Bu baxımdan onları Naxçıvana yönləndirmək üçün qarşımızda yeni imkanlar açılır. İnanıram ki, Naxçıvandakı həmkarlarımızla bu istiqamətdə uğurlu addımlar ata biləcəyik”.

***Məhəmməd Vəhdət – İran İslam Respublikasının “Azer Geşt İran” turizm şirkətinin meneceri:***



“Naxçıvanda əvvəllər bir neçə dəfə olmuşam. Ancaq sonra bir müddət gəlişimdə fasilələr yarandı. Sonuncu dəfə 6 il bundan əvvəl gəlmişdim. Bu, böyük zaman olmasa da, Naxçıvanda xeyli dəyişikliklərin baş verdiyini deyə bilərəm. Diqqətimi ən çox çəkən isə Naxçıvandakı küçə və parkların, yolların təmiz saxlanılmasıdır. Havası da çox təmizdir. Burada olduğumuz müddətdə biz müxtəlif yerləri gəzib-dolaşdıq. Həm gözəl təbiət mənzərələri ilə əhatə olunmuş yaylaqlarda, həm də qədimliklə müasirliyin birləşdiyi şəhər məkanında. Hər birinin öz gözəlliyi var. Burada getdiyimiz hər ünvanda həmin obyektə aid müəyyən məlumatları dəftərçəmdə qeyd etdim. Bunu ona görə etdim ki, gələcəkdə şirkətimiz vasitəsilə Naxçıvana gələcək turistlərə maraqları baxımından müəyyən tövsiyələr verə bilim. Ümumi fikrim budur ki, Naxçıvanda ötən illərdə inkişaf çox sürətlə gedib. Ən əsası isə Naxçıvanda hər bir turist üçün maraqlı nə isə var. İnanıram ki, Naxçıvanla turizm əlaqələrinin inkişafında lazımi addımlar ata biləcəyik”.

***Azər Nəzərov – “Luxury Travel” şirkətinin sahibi:***



“Əvvəlcə bu turu təşkil edənlərə dərin minnətdarlığımı bildirirəm. Etiraf edim ki, Azərbaycanın bir çox bölgələrində olsam da, Naxçıvana ilk dəfədir gəlirəm və gəlib buranı görəndən sonra heyrət içində qalmışam. İnanın, Naxçıvanın bu cür gözəl, müasir, inkişaf etmiş olduğunu bilmirdim. Bəzən oturub saatlarla Avropa ölkələrinin gözəlliyindən, qayda-qanunların yerində olmasından danışırıq. Naxçıvanda olandan sonra gördüm ki, demək, biz bunu bacarırıq. Əminliklə deyirəm ki, Naxçıvan bütün ölkəmiz üçün nümunə gücündədir. Gözəl binalar, rahat yollar, səliqə-sahman, sakit şəhər həyatı – hansını deyim? İnanın ki, belə gözləmirdim. Burada çox işlər görülüb. Qalır, turizmin inkişafına öz dəstəyimizi göstərək. Çalışacağam ki, şirkətimiz vasitəsilə muxtar respublikaya turist axınını artıraq. İnanıram ki, bunu bacaracağıq”.

Qeyd edək ki, “Nəqşicahan Holdinq”in təşkilatçılığı ilə yerli və əcnəbi turizm şirkətlərini təmsil edən sahibkar və turizmçilərin Naxçıvan Muxtar Respublikasına səfəri bu gün başa çatır.

✍ Səbuhi HƏSƏNOV

## Ümumdünya Hemofiliya Gününə həsr olunmuş maarifləndirici tədbir keçirilib



***Aprelin 13-də Naxçıvan Muxtar Respublika Xəstəxanasında 17 aprel – Ümumdünya Hemofiliya Gününə həsr olunmuş tədbir keçirilib.***

Xəstəxananın baş həkimi Əli Ələsgərov dünyanın 100-dən çox ölkəsində əhalini xəstəliklə bağlı məlumatlandırmaq məqsədilə bu günün hər il qeyd olunduğunu bildirib. Diqqətə çatdırılıb ki, irsi qan xəstəliyi olan bu xəstəliyin əsas səbəbləri yaxın qohumların nikahı, radiasiyalı ətraf mühit, qida və tütün məmulatlarının təsiri və digər amillərlə bağlıdır. Hemofiliya qanın laxtalanma prosesinin anadangəlmə pozğunluğu olub, təkcə həmin xəstəlikdən əziyyət çəkən şəxslərin yox, həm də cəmiyyətin problemidir. Ölkəmizdə 1500-dən çox, muxtar respublikamızda isə 68 nəfər bu xəstəlikdən əziyyət çəkir. Son illər ölkəmizdə talassemiyalı xəstələrin müalicəsinin səviyyəsi yüksəldiyi üçün ölüm faizi azalıb.

Qeyd edilib ki, Prezident İlham Əliyev tərəfindən 2005-ci ildə “Hemofiliya və talassemiyalı irsi qan xəstəliyinə düçar olmuş şəxslərə dövlət qayğısı” haqqında Fərman imzalanıb. Bununla əlaqədar əhali arasında vaxtaşırı maarifləndirmə kampaniyası həyata keçirilir. Ölkəmizdə, o cümlədən muxtar respublikamızda uğurla həyata keçirilən “Hemofiliya və talassemiya irsi qan xəstəlikləri üzrə Dövlət Proqramı” isə irsi qan xəstəliyindən əziyyət çəkənlərin həyat tərzinin yaxşılaşdırılmasına və ömürlərinin uzadılmasına xidmət edir. Proqram çərçivəsində xəstələr dərman preparatları ilə pulsuz təmin olunurlar. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və digər dövlət qurumları tərəfindən vaxtaşırı təşkil edilən könüllü qanvermə aksiyalarından toplanan qan irsi qan xəstəliyindən əziyyət çəkənlərin müalicəsinə sərf olunur.

Tədbirdə Hematologiya şöbəsinin müdiri Xalidə Bağırova “Hemofiliya xəstəliyinin müalicə prinsipləri”, həkim-hematoloq Leyla Bağırova “Hemofiliya xəstəliyinin epidemiologiya, klinika, diaqnostikası, VIII və IX faktorun biokimyəvi xüsusiyyətləri” mövzularında məruzələrlə çıxış ediblər.

Məruzələr slayd və xronikalarla müşayiət olunub, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Muxtar respublika üzrə keçirilən zona birinciliyinə yekun vurulub

*Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil, Fövqəladə Hallar nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Əlahiddə Ümumqoşun Ordunun birgə təşkilatçılığı ilə “Şahin” hərbi-idman oyununun Naxçıvan Muxtar Respublikası üzrə keçirilən zona birinciliyinə yekun vurulub.*



“Şahin” hərbi-idman oyunu üç mərhələ üzrə keçirilib: məktəbdaxili seçmə mərhələsi, rayon (şəhər) birincilikləri və zona birinciliyi. İlk iki mərhələdə qalib gələn komandalar zona birinciliyində iştirak ediblər.

Əvvəlcə Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev, Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik Zaur Həmidov, Təhsil Nazirliyinin şöbə müdiri Rüstəm Həsənli, Fövqəladə Hallar Nazirliyinin nümayəndəsi, kapitan Rəcəb Səfərov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndəsi mayor Vüsal Əliyev çıxış edərək oyunun keçirilməsində məqsədin məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərilməsindən ibarət olduğunu vurğulayıblar. Çıxış edənlər iştirakçılara uğurlar arzulayıblar.

Əsasnaməyə uyğun olaraq keçirilən yarışda məktəblilər 10 normativ yerinə yetiriblər. Hərbi-idman oyununda komandalar sıra hazırlığı, avtomat darağının doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açılması, fiziki hazırlıq, manelərin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə qüvvələrini sınayıblar.

Yarışın nəticəsinə əsasən və hakimlər heyətinin qərarı ilə Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin komandası qalib adını qazanıb. Digər iki pillədə isə Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin və Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin komandaları qərarlaşıblar.

Qalib komandalara təşkilatçıların fəxri fərman, diplom və kubokları təqdim olunub.

✍ Ceyhun MƏMMƏDOV

## “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti nəqliyyat xidmətlərinin satınalınması məqsədilə təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana – Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi, “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyətinə (əlaqələndirici şəxs: Əhmədov Namiq Əhməd oğlu, telefon: 050-541-96-42) müraciət edə bilərlər.

Təkliflər sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş təklifləri 21 aprel 2017-ci il tarixədək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən müddətdən gec təqdim olunan təkliflər baxılmadan geri qaytarılacaqdır.

Təkliflər Naxçıvan şəhəri, Ə.Qəmküsar küçəsi, “Naxçıvan Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti ünvanında 24 aprel 2017-ci il tarixdə, saat $15^{00}$-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılışı prosedurunda iştirak edə bilərlər.

*Tender komissiyası*

***Bildiriş***

“Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200539551) adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikası “Bərəkət Buğda Məhsulları” Məhdud Məsuliyyətli Cəmiyyəti adlandırılıb.


**ŞƏRQ qapısı**

Baş redaktor müavini: RAUF KƏNGƏRLİ

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 297